Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır

**Gənclər Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2021**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul**: **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Redaktor:** **Lalə Qəmbərova**

**Gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır**: 2 fevral Gənclər Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. Ruhiyyə Məmmədli; ixt.red. və burax.məsul Şəhla Qəmbərova; - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2021.- 39 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021**

## Tərtibçidən

Gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu gün Azərbaycanda sağlam, vətənpərvər, intellektli gənclik formalaşıb. Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəsilə bağlayır. Gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir. Çünki ölkənin gələcəyi, müqəddəratı indiki gənclərdən asılıdır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. O, öz həyatını qurarkən, öncə, müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünür, öz fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir. Bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar.

Azərbaycan dövlətinin gənclərə göstərdiyi diqqət və qayğı onları doğma yurdu sevməyə, yüksək təhsil alaraq ölkəmizin inkişafına töhfə verməyə həvəsləndirir. Məhz bu diqqət və qayğının nəticəsində bu gün gənclərimiz cəmiyyətin fəal üzvləri kimi ölkə həyatının bütün sahələrində səylə çalışır, Azərbaycanın çiçəklənməsi yolunda əsl vətəndaşlıq mövqeyindən çıxış edirlər.

**“Azərbaycan gəncləri 2016-2020-ci illərdə” Dövlət Proqramı çərçivəsində gənclərlə bağlı bir sıra yeni təkliflər**

Gənclər və İdman Nazirliyi tərəfindən irəli sürülən təkliflər içərisində istedadlı və yaradıcı gənclərin əsərlərindən ibarət Bədii Yaradıcılıq Fondunun yaradılması, gənc rejissor, rəssam, sənətkar və fotoqrafların əsərlərindən ibarət yerli və beynəlxalq səyyar sərgi və kino nümayişlərinin təşkili, yerli və beynəlxalq elmi-praktik konfrans, forum, seminar və digər tədbirlərin keçirilməsi, yeniyetmə və gənclərin elmi-texniki yaradıcılıq festivalının təşkili yer alıb. Bundan əlavə, gənclərlə bağlı müasir teleradio layihələrinin hazırlanması, internet resurslarının inkişafı, Azərbaycan tarixi və mədəniyyətini əks etdirən kompüter oyunları və mobil proqramların hazırlanması və bir sıra digər təkliflər irəli sürülüb.

## Gənclər mədəni mübadilənin aparıcı qüvvəsidir

1998-ci ildə Lissabonda keçirilən beynəlxalq konfransda hər il avqustun 12-nin dünyada Gənclər Günü kimi qeyd olunması qərara alınıb. Ölkəmizdə isə Gənclər Günü hər il fevral ayının 2-sində qeyd olunur. 1990-cı illərin əvvəllərində dövlət müstəqilliyini yenidən əldə etmiş respublikamızda mürəkkəb ictimai-siyasi proseslər cərəyan edir, dövlətçiliyimizə xələl gətirən, onun ərazi bütövlüyünün pozulmasına çalışan qüvvələr, separatçı mövqedən çıxış edir, Ermənistan tərəfindən torpaqlarımız işğal olunurdu. Yaranmış gərgin vəziyyət, Dağlıq Qarabağda ermənilərin törətdikləri vəhşiliklər və cəbhədəki uğursuzluqlar gənclərimizi də ruh düşkünlüyünə, bədbin əhvali-ruhiyyəyə sövq etmişdi. Dövlət müstəqilliyimizin əldə olunmasında müstəsna rol oynamış, xalq hərəkatının önündə gedərək azadlıq və müstəqillik ideyalarının daşıyıcıları olmuş, Vətənin müdafiəsi torpaqlarımızın qorunması uğrunda yüzlərlə şəhid vermiş gənclərimiz diqqətdən kənar qalmışdılar. Məhz

belə bir vaxtda gənclərin strateji dövlət maraqlarının təminatçısı olduğunun dərk edilməsi və onlarla yeni məzmunda iş aparılması, dövlət siyasətinin həyata keçirilməsi olduqca vacib idi. Belə bir tarixi şəraitdə Azərbaycan xalqının tələbi və iradəsi ilə yeni hakimiyyətə qayıdan möhtərəm Prezidentimiz Heydər Əliyevin apardığı uğurlu daxili və xarici siyasət gənclərlə iş sahəsində də ciddi dönüş yaratmağa imkan verdi. Gənclərə qayğı gündən-günə artdı. Onlara etimad göstərilməyə, məsul vəzifələrdə çalışamalarına şərait və imkan yaradıldı. Gənclərin ixtisaslarının artırılmasına, çalışdıqları sahələr üzrə təkmilləşdirilmələrinə, inkişaf etmiş demokratik ölkələrin təcrübələrinə yiyələnmələrinə qayğı göstərildi. 1999-cu il iyulun 29-da ümummilli lider Heydər Əliyev "Dövlət gəncləri siyasəti haqqında" fərman imzalamışdır. Bu fərmanla geniş tədbirlər planı həyata keçirilməyə başlandı. 2002-ci il aprelin 9-da "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Qanunda gənclər siyasətinin məqsəd və prinsipləri, onun həyata keçirilməsində dövlətin vəzifələri, bu siyasətin əsas istiqamətləri, həyata keçirilməsinin təşkilati, maddi və maliyyə təminatı və digər məsələlər konkret əksini tapıb. Bu istiqamətdə aparılan məqsədyönlü işlər nəticəsində dövlət-gənclər siyasətinin normativ hüquqi bazası formalaşıb. Respublika gənclərinin II forumundan sonra uşaq və gənclərin problemlərinin həllinə, hüquqlarının müdafiəsinə yönəldilmiş 3 qanun qəbul edilib. Respublikamız bu sahədə bir sıra hüquqi konvensiyaya qoşulub. Bütün bunlar bir daha sübut edir ki, gənclər siyasəti ölkəmizdə çox uğurla həyata keçirilir və o, ölkə rəhbərinin daimi nəzarətindədir. Odur ki, bu gün Azərbaycanda 170-ə yaxın gənclər təşkilatı fəaliyyət göstərməkdədir. Dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsi, onlara qayğı və diqqətin müntəzəm artırılması həyatımızın bütün sahələrində özünü göstərir. Gənclərimiz də öz növbəsində ölkə başçımızın

onlara olan etimadlarını doğruldur. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, Azərbaycan gəncləri "... sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir". İnanırıq ki, bu gənclik Heydər Əliyevin ideyalarını ölkəmizin başçısı İlham Əliyevin rəhbərliyi altında gerçəkləşdirəcək, inkişaf etdirəcək daha işıqlı gələcəyə aparacaq. Ümummilli liderimiz Heydər Əliyev öz siyasətində daima gənclərə qayğı göstərmiş, onların bir fərd kimi yetişməsinə xüsusi önəm vermişdir. Ulu öndər respublika rəhbərliyinə gəldiyi ilk dövrlərdən gənclərin himayədarı kimi çıxış edərək sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində misilsiz işlər görmüşdür. Hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq gənclər siyasəti ilə bağlı bir çox fərman və sərəncamlar imzalayan ulu öndər gənclərin milli və vətənpərvər ruhda tərbiyəsinə həmişə önəm vermişdir. Heydər Əliyev nitqlərinin birində bu barədə demişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik". Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başladı. Bütün bunları gözəl bilən ümummilli liderimiz Heydər Əliyev gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı. Gənclər və İdman Nazirliyi yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirilməyə başladı, nazirliyin yerli strukturları formalaşdı, gənc nəslin mənəvi tərbiyəsi və fiziki inkişafı, hüquqlarının müdafiəsi, onların beynəlxalq qurumlarda

iştirakı və gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi sahəsində lazımi tədbirlər görüldü, bir sıra dövlət proqramları hazırlandı. Bu siyasətin davamı olaraq 1996-cı il yanvarın 26-da ulu öndər Heydər Əliyev tərəfindən imzalanan sərəncama əsasən, 2 fevral 1996-cı il tarixində Azərbaycan Respublikası gənclərinin ilk forumunun keçirilməsi qərara alındı. Bu forumun keçirilməsi ilə dövlət siyasətində gənclərə diqqət, qayğı daha da artırıldı. Forum müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində ölkə gənclərinin hər bir sahədə fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi və gənclərlə işin nəzərəçarpacaq dərəcədə canlanmasına səbəb oldu. Ulu öndər Heydər Əliyevin gənclər siyasətini uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyevin 2006-cı ildə imzaladığı Gənclər və İdman Nazirliyinin yenidən təşkil edilməsi haqqında fərman da mühüm hadisə oldu. Dövlətin gənclərlə bağlı siyasətinin uğurla həyata keçirilməsində bu mühüm addımın çox böyük rolu var. Gənclərin sağlam böyüməsi yolunda atılan bu addımla bütün sahələrdə olduğu kimi idman sahəsində də böyük irəliləyişlər əldə olundu. Ölkəmizdə məqsədyönlü şəkildə həyata keçirilən işlərin nəticəsi olaraq bu gün müasir Azərbaycan gəncliyi yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkə rəhbəri tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətinin düzgünlüyünü bu sahədə qazanılmış uğurlu nəticələr də təsdiqləyir. Prezident İlham Əliyevin gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" sərəncamı da gənclərə dövlət qayğısının davamı idi. Bütün bunlar deməyə əsas verir ki,

ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasəti gələcək nəslin intellektual səviyyəsinin artmasına da olduqca müsbət təsir göstərir. Təhsil sahəsində aparılan islahatlar da gənclər siyasətinin ən vacib istiqamətlərindən biridir. Gənclərin maariflənməsinə, savadlanmasına, elmi inkişafına göstərilən xüsusi diqqət və qayğının davamı olaraq, “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində tələbələrin dünyanın məşhur universitetlərində təhsil almaq üçün göndərilməsi xüsusi diqqətə layiqdir. "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında" Prezident fərmanları bu istiqmətdə görülən mühüm tədbirlərdəndir. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün də dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. "Bədən tərbiyəsi və idman haqqında", "Gənclər siyasəti haqqında" qanunlar, habelə "Gənc ailə" proqramı, "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" Dövlət Proqramı da bu qəbildəndir. Prezident İlham Əliyev tərəfindən 2007-ci ilin “Gənclər ili” elan edilməsi gənclərə ölkə Prezidenti tərəfindən böyük önəm verilməsinin növbəti sübutu idi. Hazırda ölkəmizdə gənclər siyasəti uğurla həyata keçirilir. Sosial həyatın bütün sferalarına nəzər salsaq, görərik ki, orada gənclər əksəriyyət təşkil edir. Təbii ki, bu, cənab Prezidentin gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyduğu vəzifənin reallaşmasının nəticəsidir. Gənclər də dövlət qayğısını daim öz üzərlərində hiss edərək, nailiyyətləri ilə onlara göstərilən qayğını doğrultmağa çalışırlar. Çünki Prezident İlham Əliyev gənclərə olan münasibətini belə ifadə etmişdir: “Mənim

gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram”. Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini toplamalı, vətənin inkişafı üçün səylə çalışmalı, öz siyasətində onlara arxalanan ölkə Prezidentinin etimadını həmişə doğrultmalıdırlar. Bunun möhkəm olması isə yetişən nəslin sağlam təfəkküründən, düşünmə qabiliyyəti və inadkarlığından asılıdır. Səbəbsiz deyil ki, bütün dövrlərdə millətinin adını qəhrəmanlıqla tarixə yazan da elə sağlam gənc qüvvələr olub. Gənclərə göstərilən diqqət və qayğı bəhrəsini verirdi. Azərbaycan gənclərinin səsi dünya miqyaslı turnirlərdən gəlir, bayrağımız ən möhtəşəm yarışlarda dalğalanırdı. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, bu ilin əvvəlinə ölkə əhalisinin 2,8 milyon nəfərini və ya 31 faizini 14-29 yaşında olan gənclər təşkil edir. Onların 49 faizi kişi, 51 faizi isə qadınlardır. Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda qeyd olunub. Azərbaycanda Gənclər Günü qeyd olunandan sonra digər MDB ölkələrində və Şərqi Avropa dövlətlərində də bu gün qeyd olunmağa başlanmışdır. Dünyada isə yalnız 1999-cu ildə BMT-nin qərarı ilə avqustun 12-si “Gənclər Günü” elan edilib. 1997-ci ildən etibarən ölkəmizdə gənclərin hüququnu müdafiə edən, onların inkişafına yönələn bir sıra qərar və sərəncamlar qəbul edilmişdir. Onu da qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 17 aprel 2006-cı il tarixli 1414 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006- 2010-cu illər)" xüsusi əhəmiyyətə malik tarixi bir sənəddir. İctimaiyyət tərəfindən rəğbətlə qarşılanan bu proqram ümumtəhsil məktəblərimizdəki istedad və qabiliyyəti

ilə seçilən şagirdlərin səmərəli təhsil almalarına, şəxsiyyət kimi formalaşmalarına, düzgün peşə seçmələrinə şərait yaradır. Bu sərəncama əsaslanaraq kitabxanalarımız gənclərimizin xüsusi maraq və meyillərinin aşkar edilməsini nəzərdə tutan müəyyən tədbirlər görə bilər. Həmin tədbirlər aşağıdakı problemləri əhatə etməlidir:

**1. Gənclərin təşəbbüslərinin dəstəklənməsi;**

**2. Gənclərin asudə vaxtının səmərəli təşkil olunması;**

**3. Gənclərə vətənpərvərlik hissinin aşılanması;**

**4. Gənclərin sağlamlığının qorunması məqsədilə onların zərərli vərdişlərdən uzaqlaşdırılması üçün tədbirlərin görülməsi;**

**5. Yaradıcı gənclərin üzə çıxardılması.**

Müasir dövrdə kitabxanalarda gənclərin bir sıra problemlərinin aradan qaldırılması üçün müvafiq tədbirlər görülməlidir. Belə ki, bir sıra problemlərlə əlaqədar kitabxanalarımızda aksiyaların, gənclərlə görüşlərin və müəyyən tədbir planlarının həyata keçirilməsi məqsədə müvafiq olardı:1)Müəyyən səbəblərdən gənclərin təhsildən yayınmasının qarşısını almaq və onlarda təhsilə maraq artırmaq məqsədilə görüşlərin keçirilməsi;2) Qaçqın və məcburi köçkün gənclər üçün müasir informasiya kommunikasiya texnologiyalarına həsr olunmuş təlim proqramının təşkili və internet aksiyalarının keçirilməsi; 3) Gənclərin sağlamlığının qorunması və onlar arasında AİDS-in törətdiyi fəsadlar haqqında geniş maarifçilik işi aparmaq;4) Gənclərimizi ziyanlı vərdişlərdən (narkotik, alkoqol, papiros) yayındırmaq məqsədilə aksiyalarıntəşkili; 5)Gənclərin mütaliəsinin düzgün istiqamətləndirilməsi məqsədilə kitabxanalarda xüsusi proqramların təşkil edilməsi, informasiya və məsləhət xidmətinin həyata keçirilməsi.

**Keçiriləcək tədbirlər**

Gənclər Günü ilə bağlı bir sıra tədbirlər; kitab müzakirəsi, oxucularla söhbət, konfrans, icmal, dəyirmi masa, bu mövzu ilə bağlı rəsm müsabiqəsi, səhnəcik də təşkil edilə bilər. Gənclər Günü mövzusunda kitabxanada kitab sərgisinin təşkili məqsədəuyğundur. Sərgidə Azərbaycan gənclərinin nailiyyətləri ilə bağlı fotostendlər, kitablar, görkəmli şəxsiyyətlərin gənclik haqqında söylədikləri kəlamlardan, dövri mətbuat materiallarından istifadə olunur. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: ***"Gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır", "Gənclər mədəni mübadilənin aparıcı qüvvəsidir", "Gənclər bizim gələcəyimizdir", "Gənclər böyük qüvvədir", "Gənclər gələcəyimizin qurucularıdır", "Gələcəyin etibarlı təminatı bilikli və bacarıqlı gənclərdən asılıdır", "Elə bir sahə tapılmaz ki, orada gəncliyin izi görünməsin",*** "Gələcək gənclərin, gənclər isə müəllimlərin əsəridir" və s. 2 fevral Gənclər Günü münasibətilə kitabxanalarda "Gənclərin Vətən məsuliyyəti" adlı oxucular konfransı da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib edilməli, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, tələbələrin və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə: "Gənc nəslin milli mənlik şüurunun inkişafı";
2. Bu mövzuda kitabxana rəhbərliyinin, jurnalist, gənclər təşkilatlarının aparıcı şəxslərinin çıxışları;
3. Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların bu mövzuda hazırladığı slaydların təqdimatı;
4. Konfransın yekunu.

# Kitab sərgisi



























## Görkəmli şəxsiyyətlərin gənclər haqqında söylədikləri fikirlər:

Azərbaycan gəncləri sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir. Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün xətalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var.

**Heydər Əliyev,**
*ümummilli lider*

Bugünkü gənclər – müstəqillik dövründə böyümüş, tərbiyə almış gənclər bizim üçün qürur mənbəyidir... Doğrudan da bizim gələcəyimiz etibarlı əllərdədir. Azərbaycanın gələcək inkişafı gənclərin əlində olmalıdır. Gənclər bilikli, savadlı, peşəkar və vətənpərvər olmalıdırlar.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

İstəyə gənclikdə mümkündür çatmaq,
Qocalıq gəldimi, axtar bir bucaq..
Gənclikdir insana gözəllik verən,
Gözəllik sönərsə, qəlb olurmu şən?

**Nizami Gəncəvi,**
*Dünya şöhrətli Azərbaycan şairi*

Gənclik, əlbəttə, başqa nemətdir,
Unutulmaz böyük səadətdir.

**Hüseyn Cavid,**
*Şair, yazıçı və dramaturq*

Gənclik bir qızıldır, ömrün əlindən
Düşərək torpağa yox oldu birdən.
Tapmaq həvəsilə həmin qızılı
Torpağı yuyuram göz yaşıyla mən.

**Əfzələddin Xaqani,**
*Şair-filosof, nasir*

Gənclik zamanı günlər qısa, illər uzun, qocalıq zamanı isə günlər uzun, illər qısa.

**İmmanuil Kant,**
*Alman filosofu*

Gəncliyin ruhunu istifadə edilməyən bir tarla kimi özbaşına qoysanız, orada gicitkən və tikandan başqa bir şey tapa bilməzsiniz.

**İohan Vilhelm Snelman,**
*Fin yazıçısı, diplomatı və filosofu*

Gəncliyin və sağlamlığın dəyəri itiriləndən sonra bilinər.

Yetişmək üçün meyvənin günəşə, cavanın öyüdə ehtiyacı var.

Cavanlıqda odun yığsan, qocalıqda üşüməzsən.

Cavanlıq müdrikliyi mənimsəmək, qocalıq isə bu müdrikliyi tətbiq etmək dövrüdür.

**Atalar sözləri**

Gənclik yeni nəsil deməkdir. Kökünə bağlı, əcdadının yolu ilə gedən, milli, mənəvi dəyərlərinə, sadiq, əyilməz, alnıaçıq, həm də tükənməz gücdür.

**“Füyuzat” jurnalından**

Zamanın hər parçasını millətinə, vətəni adına dəyərləndirən gənclik uca missiyaları çiyinlərində daşıyan xalq qəhrəmandır.

**“Füyuzat” jurnalından**

Ömrün ən təhlükəli dövrü gənclikdir.

**Corc Noel Qordon Bayron,**
*İngilis romantik şairi*

Gənclik ona görə xoşbəxtdir ki, onun gələcəyi var.

**Nikolay Vasilyeviç Qoqol,**
*Rus yazıçısı, dramaturqu, şairi*

Müstəqil həyata qədəm qoyan gənclər utancaq və təvəzökar olmalıdır, çünki arxayınçılıq və lovğalıq son nəticədə azğınlğa çevrilə bilər.

**Fransuo de Laroşfuko,**
*Fransa yazıçısı*

Cavanlıqda əkdiyini qocalıqda biçərsən.

**Henrik İbsen,**
*Norvegiyalı dramaturq*

Bütün uğurlarıma görə gənclikdə çəkdiyim aclıq və əzablara borcluyam.

**Napoleon Bonapart,**
*Fransa imperatoru*

Dünyada ən ağıllı iş gənclikdə qazandığın elmi qocalıqda xərcləməkdir.

**Ceyms Rendal,**
*Amerika yazıçısı*

Hər bir millətin istər tərəqqisi, istərsə də tənəzzülü həmin millətin gənclərinin alacaqları tərbiyədən asılı olur.

**Uilyam Şekspir,**
*ingilis dramaturqu*

Gənclik asan xoşbəxtliklər üçün parlaq bir çağdır.

**Albert Kamyu,**
*fransız yazıçısı və filosof*

Gənclər günündə təbliğ olunacaq ən aktual mövzulardan biri vətənpərvərlik mövzusudur. Vətənpərvərlik ən ülvi bir hissdir. Bu gözəl və nəcib əxlaqi keyfiyyəti gələcəyin qurucularına aşılamaq biz kitabxanaçıların borcudur. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın gələcəyi olan gənc nəslin vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşmış və ona həyatı əhəmiyyətli məsələ kimi baxmışdır. Biz şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edirik. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Səmədağa Mehmandarov, Əliağa Şıxlinski, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə kimi igid və cəsur sərkədələrimizin şəxsi nümunəsi bizə əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Və bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetirmişdir. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi apardığımız hərbi vətənpərvərlik tərbiyəsi işində ön plana keçməlidir. Respublikamızın ümumtəhsil, orta ixtisas və ali məktəblərində tədris olunan təbiət və cəmiyyət elmlərinin, humanitar fənlərin, ümumilikdə bütün fənlərin gənclərdə hərbi-vətənpərvərlik hissləri aşılamaq üçün çox böyük imkanları vardır. Gənclərdə hərbi-vətənpərvərlik tərbiyəsini o zaman daha yaxşı aşılamaq mümkündür ki, orta məktəbin X-XI siniflərində oxuyan şagirdlərə və ali

məktəbdə təhsil alan tələbələrə ayrı-ayrı fənləri və ixtisas kurslarını tədris edərkən hərbi məzmunlu biliklər də verilsin. Gənclərin ədalət və düzgünlük, humanizm, vətənpərvərlik, xeyirxahlıq, mərhəmət, xeyriyyəçilik, cəsarət və mərdlik, təmizlik, milli-mənəvi dəyərlərə bağlılıq ruhunda tərbiyə edilməsi, onlarda dövlətçilik təfəkkürünün, millətə, Vətənə bağlılıq hissilərinin gücləndirilməsi mənəvi inkişafın vacib istiqamətləridir. Azərbaycan gənci öz tarixinə hörmətlə yanaşmalı, öz vətəninə, xalqına, dövlətinə, dövlətçilik tarixinə, bayrağına, himninə, gerbinə, milli dəyərlərinə, adət-ənənələrinə, dövlət rəhbərinə ehtiramla yanaşmalı, milli dəyərlərini, milli maraqlarımızı hər şeydən uca tutmalıdır. Gənclərin Vətən məsuliyyəti onların amalı olmalıdır. Bunun üçün də gənclər arasında maariflənmə aparılmalıdır. Tarixi şəxsiyyətlərin, ictimai xadimlərin, milli qəhrəmanların kimliyi, həyat yolu gənclər arasında mütəmadi təbliğ olunmalıdır. Bu təbliğat yolu ilə hər bir gəncin içində bir idealı, qəhrəmanı yaranır. Müstəqil Azərbaycan dövlətinin qorunub saxlanılması, onun tərəqqisi naminə gələcəyin qurucuları olan bügünkü nəslin əsl vətəndaş kimi yetişməsi üçün, biz kitabxanaçılar xalqımızın keçmişini mükəmməl öyrənməyə səy göstərən məktəbliləri torpaqlarımızın bütövlüyü və toxunulmazlığı, azadlığı və müstəqilliyi yolunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin həyat və döyüş yollarını əks etdirən kitablarla tanış etməli, öz şərəfli ölümləri ilə ölümsüzlük zirvəsini fəth etmiş oğullarımızın qısa, lakin mənalı ömür yolu təbliğ olunmalıdır.

Gənclərimizin intellektual səviyyələrinin yüksəldilməsi, onların dünyagörüşünün artırılması əsas məsələlərdən biridir. Ölkəmizdə bir sıra intellektual gənclər klubları fəaliyyət göstərməkdədir. Yaxşı olardı ki, kitabxanalarda da intellektual klublar, viktorinalar təşkil olunsun və vaxtaşırı həmin klubların yarışları təşkil edilsin. Viktorinaların təşkili orta və böyük yaş qrupuna aid oxucular üçün daha əhəmiyyətli olar. Oyunun

maraqlı təşkil olunması məqsədilə verilən cavablar damalar daxilində bir-birindən asılı formada lövhədə əks olunur. Hər cavab tapıldıqca aparıcı düzgün cavabı həmin xanalara yazır. Gənclər arasında iş aparan zaman kitabxanaçılar onları aşağıdakı müəyyən qruplara ayıraraq öz işlərini istiqamətləndirə bilərlər. Bu məqsədlə yüksək intellektli və yaradıcılıq qabiliyyətli gəncləri aşkarlayıb onlarla iş aparmaq olar. Xüsusi qabiliyyətli gənclərin əsas fərqləndirici xüsusiyyəti ondadır ki, onların düşünmə tərzi heç kimə oxşar olmayan, qeyri-standart və orijinal olur. Xüsusi qabiliyyətli gənclər, bir qayda olaraq, güclü yumor hissi ilə də fərqlənir və geniş müşahidə qabiliyyətinə malik olurlar. Bunu nəzərə alaraq kitabxanaların nəzdində gənclər üçün "Şən və hazırcavablar" klubu təşkil etmək olar. Viktorinanın suallarını təqdim edirik:

1. Olimpiya oyunları ilk dəfə harada keçirilib?

**Cavab:** İlk dəfə Yunanıstanda keçirilib. Keçmiş MDB-də ancaq Moskvada olub. Birinci dəfə Yunanıstanda olub. Sonuncu dəfə Çində olub.

2. Səmada Günəşdən sonra ən parlaq ulduz hansıdır?

**Cavab:** Sirius ulduzu – Səmada Günəşdən sonra ən parlaq ulduzdur.

3. Sovet dövründə belə hesab olunurdu ki, o ən yaxşı hədiyyədir. O hədiyyənin ən bahasını Bill Gates 24 milyon dollara alıb.

**Cavab:** . Sovet dövründə kitab ən yaxşı hədiyyə hesab olunurdu.

4. E.ə. 490-ci ildə yunan sərkərdəsi Miltiad hansı düzdə kiçik itkilərlə 6400 düşməni öldürməyə və qələbə çalmağa nail olur?

**Cavab:** Marafon.

5. İngilis dilindən sonra dünyada ən çox danışılan Avropa dili hansıdır?

**Cavab:** İspan dili.

6. Azərbaycan Respublikasının Dövlət bayrağının üzərindəki rənglər nəyin simvoludur?

**Cavab:** Dövlət bayrağının üzərindəki mavi rəng türkçülüyün, qırmızı rəng müasirlik və demokratiyanın, yaşıl rəng isə islamlığın simvoludur.
7. Azərbaycan Respublikasının Dövlət gerbinin üzərindəki simvollar nəyi bildirir?
**Cavab:** Azərbaycan Respublikasının Dövlət gerbinin üzərindəki qalxan – birlik, müdafiə, müqavimət; ulduz – Vətənimizin cənnət məskəni olmasının; alov – odlar yurdunun; palıd yarpaqları – uzun ömürlüyün və möhkəmliyin; sünbül isə bərəkətin, bolluğun rəmzidir. Simvollar "müharibə istəmirik, lakin hər cür hücumdan da müdafiə olunmağa hazırıq" – fikrini ifadə edir.
8. Azərbaycanı 2 hissəyə bölən müqavilə hansıdır?
**Cavab:** Türkmənçay müqaviləsi.
9. Azərbaycan xalqının ana kitabı – "Kitabi-Dədə Qorqud"un neçə əlyazması məlumdur?
**Cavab:** Elmə XIX əsrdən məlum olan "Kitabi-Dədə Qorqud"un hələlik iki əlyazma nüsxəsi (Drezden və Vatikan) məlumdur.
10. Azərbaycan Milli Qəhrəmanlarından kimləri tanıyırsınız?
**Cavab:** Çingiz Mustafayev, Allahverdi Bağırov, Əlif Hacıyev, Vüqar Hüseynov, Məhərrəm Seyidov, Əsəd Əhmədov, Şirin Mirzəyev, Fərid Əhmədov, Mübariz İbrahimov və başqaları.
11. Bu qəhrəmanlar haqqında yazılmış hansı kitablar var?
**Cavab:** İ. İbadoğlu "Sərkərdə", A. Kərimli. "Zəngilan şəhidləri", S. Müslümqızı "Qar üstünə qan yağırdı", "Xocalı uşaqları – qan içində qar çiçəyi", B. Səmədov., S. Aslanov "Təki Vətən yaşasın", M. Süleymanov "Milli Qəhrəmanlar", E. Elatlı "Qisas gecəsi", "Cəhənnəmdən gələn səs", G. Pənah "Qarabağ dərdi", M. Çəmənli "Mübariz" və s.
12. Azərbaycan torpağının işğaldan azad olunmuş şəhər və rayonları hansılardır?
**Cavab:** Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdərə, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan.
13. Qarabağ müharibəsi nə vaxt başlamışdır?

**Cavab:** 1988-ci ilin fevralında.
14. Böyük Vətən müharibəsi illərində neçə nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür?
**Cavab:** 23 nəfər.
15. Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseyzadədən bəhs edən filmin adı nədir?
**Cavab:** "Uzaq sahillərdə".
16."Sizi dünyalar qədər sevirəm" bədii filmi kimə həsr olunub?
**Cavab:** Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanova.
17. Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə neçənci ildə qayıtmışdır?
**Cavab:**1993-cü il 3 oktyabr.
18. "Əsgər marşı"nın musiqisi kimindir?
**Cavab:** Cavanşir Quliyevin.
19. "Vətən mənə oğul desə nə dərdim,
Mamır olub qayasında bitərdim" – misralarının müəllifi kimdir?
**Cavab:** Xalq şairi Məmməd Araz
20. Azərbaycanda neçə şəxs Milli Qəhrəman adına layiq görülmüşdür?
**Cavab:** Azərbaycanın müstəqilliyi, torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə minlərlə insanımız iştirak etmiş və şəhidlik zirvəsinə qalxmışdır.

Gənclərin iştirakı ilə bir-birindən maraqlı səhnələrin təşkil edilməsi olduqca maraqlı olar. Bunun üçün dünya şöhrətli yazıçıların və şairlərin əsərlərindən istifadə edilməsi məqsədəuyğundur. Belə əsərlərin seçilməsi gənclərdə mütaliəyə marağı daha da artırar. Əsərin səhnələşdirilməsi üçün bacarıqlı gənclərin istedadından istifadə edilməsi yaxşı olar. Bu gənclərdə mütaliəyə həvəsi daha da artırar, onların aktyorluq bacarığını meydana çıxarar. Yuxarı sinif şagirdləri arasında "Ən yaxşı

povest”, “Ən yaxşı şeir”, “Ən yaxşı hekayə” adları altında müsabiqələr təşkil etmək olar. Gənc istedadları həvəsləndirmək məqsədilə qalibin hekayə və ya povestini elə gənclərin öz iştirakı ilə səhnələşdirmək onların həvəsini daha da artırar. Gənc oxucularımızın ideya və maraqlarını öyrənmək məqsədilə dəyirmi masanın keçirilməsi məqsədəuyğundur. Gənclərin həyatının yaxşılaşdırılmasında mühüm rolu olan gənclər təşkilatlarının nümayəndələri tədbirə dəvət olunur. Tədbir zamanı gənclər və təşkilat nümayəndələri məruzə edirlər. Gənclərimizin öz ideyaları, gələcək planları barədə çıxışları dinlənilir. Hər bir gənci narahat edən problemlər dinlənildikdən sonra əlaqədar təşkilat üzvləri tərəfindən onların suallarına açıqlıq gətirilir.

İnsanlar dost qazanmağa hələ gənc yaşlarından vərdiş etməlidirlər. Çünki bu yaşda olan gənclərin həyatda düzgün istiqamət seçmələri üçün seçdikləri dostların rolu böyükdür. Yanlış dost seçimi gəncləri pis vərdişlərə sövq edə bilər. Kitabxana işçilərinin digər bir borcu da gəncləri ziyanlı vərdişlərdən uzaqlaşdırmaq, papiros, alkoqol, narkotikin ziyanlarından onları xəbərdar etməkdir. Demək olar ki, hamı narkotikin necə ziyanlı olduğunu bilir. Buna baxmayaraq onun toruna düşənlərin sayı çox sürətlə artır. Niyə? Çünki insanlar arasında maarifləndirmə aşağı səviyyədədir. Buna görə də narkotikin insanı və onun həyatını necə məhv etməsi barədə məlumat çox az insanda var. Bizim məqsədimiz bu təhlükəni gənclərimizə çatdırmaqdır. Bu məqsədlə kitabxana işçilərinin məktəblərdə gəncləri bu haqda maarifləndirmələri vacib şərtlərdəndir. Bu səbəbdən məktəblərdə gənclərlə bu barədə maarifləndirici söhbətlərin aparılması istənilən nəticələri verər. Gənclər, onu da bilməlidir ki, Respublikamızda QİÇS-lə mübarizə mərkəzi fəaliyyət göstərir. Mərkəzin qaynar xətti (494 99 24) hər zaman insanların müraciəti üçün açıqdır. Eyni

zamanda mərkəzin saytı (www.AIDS.az) da fəaliyyət göstərir. Hətta həmin mərkəzin əməkdaşları ilə gənclərin görüşünün təşkili də mümkündür. Söhbət zamanı kitabxanaçı “Tibb qəzeti”, “Ailə həkimi” jurnalındakı məlumatlardan da istifadə edə bilər. Hər bir gənc gün ərzində öz öhdəsinə düşən işləri görməklə yanaşı düzgün istirahət etməyi də bacarmalıdır. Lakin gənclərimiz istirahət rejimlərini düzgünmü qururlar? Əyləncə anlayışını hər kəs eyni mənada qəbul etmir. Gənclərimizin çoxu istirahəti kitab oxuyub, mütailə etməkdə, musiqi dinləməkdə televizora baxmaqda görürsə, böyük bir qismi isə əyləncəni dostlar ətrafında hansısa istirahət mərkəzində dincəlməkdə görür. Bir sözlə, hər bir gəncin öz maraq dairəsinə uyğun əyləncə tərzi var. İnsan vaxtını həm iş üçün, həm də istirahət üçün düzgün bölüşdürməyi bacarmalıdır. Düzgün işləyə bilməyən adam düzgün istirahət etməyi də bacarmaz. Beləcə də immuniteti zəifləyə bilər. Bununla əlaqədar kiabxana işçiləri tərəfindən gənclərimizin asudə vaxtının düzgün istiqamətləndirilməsi vacibdir. Ancaq onu da qeyd edək ki, kitab oxumaq istirahət etməyin ən yaxşı üsuludur. Britaniyalı psixoloqlar bəyan etmişlər ki, kitab oxumaq başqa üsullarla müqayisədə sakitləşməyə tez bir zamanda kömək edir. Cəmi 6 dəqiqə kitab oxumaq stressin səviyyəsini ikidə üç dəfə endirir. Kitab oxumaq fikri cəmləşdirməyə, ədəbiyyat aləminə daxil olmağa və problemlərdən yayınmağa kömək edir. Biz kitabxanaçıların üzərinə düşən əsas vəzifə gənclərdə kitab oxumağa marağı artırmaq, oxuduqları və ya oxumaq istəmədikləri kitabları başqaları ilə paylaşa bilmələri üçün imkan yaratmaq, kitab almağa maddi imkanı olmayan və ya kitabxanalara getməyən insanların kitab oxumaq üçün fürsət əldə etmələridir. Kitabxanaçıların bu mühüm vərdişi gənclərə sevdirməsi olduqca vacib amillərdən biridir. Mütaliə insan xarakterini formalaşdırıb, gənclərimizə bir sıra müsbət

keyfiyyətlər aşılayır. Bu səbəbdən kitabxanaçılar gənclərdə mütaliəyə həvəs oyatmaq məqsədilə öz işlərini planlı şəkildə qurmalıdırlar. Nəzərə alsaq ki, XXI əsr kompüter-informasiya əsridir. Mütaliəni gənclərə sevdirməyin, gənclərlə daim ünsiyyətdə olmağın ən yeni üsullarından biri də internetin geniş imkanlarından istifadə etməkdir. Çünki son dövrlərdə internetdən istifadə etməyən gənc az tapılar. Bunun üçün kitabxanaların internet səhifələrinin fəaliyyət göstərməsi, əlbəttə ki, yaxşıdır. Ancaq onu da nəzərə almaq lazımdır ki, iqtisadi çətinliklər hər kitabxanaya bu imkanı vermir. Ancaq sadə üsullarla da gənclərlə əlaqə saxlamaq olar. Bilirik ki, internetdə Twitter, Facebook kimi məşhur sosial şəbəkələr fəaliyyət göstərir. Bu şəbəkələrdə kitabxanaların səhifələrini yaratmaq və səhifələri şəbəkə istifadəçilərinə təklif etmək olar. Həmin səhifədə kitabxananın şəkilləri, kitabxanaya yeni daxil olan kitabların üz qabıqları yerləşdirilə bilər. Bununla yanaşı gənclər səhifəni yaradan kitabxanaçı ilə söhbət edə bilər, onları maraqlandıran kitablarla əlaqədar suallarını kitabxanaçıya ünvanlaya bilərlər. Bu həm də kitabxanaçıya gənc oxucuları kitabxanaya yeni daxil olan kitablarla yaxından tanış etmək imkanı verir. İnternetdə bu kimi səhifələrin yaradılması həm də oxuculara virtual olaraq müəyyən əsər haqqında fikir mübadiləsi etməyə və müzakirələr aparmağa imkan verir. Gördüyümüz kimi internetin imkanlarından istifadə edərək kitabxana sahəsində mühüm naliyyətlər əldə etməyə imkan verir. Gənclərdə maarifləndirməni gücləndirmək məqsədilə onların yazıçı və şairlərlə kitabxanalarda görüşünün təşkili yaxşı nəticələr verər. F. Köçərli adına kitabxana öz iş təcrübəsində bu metoddan geniş istifadə etməkdədir. Belə ki, bu cür görüşlər gənclərdə savadı, dünyagörüşünü daha da artırır. Bundan əlavə fikir mübadiləsinin aparılması gənclərə öz fikir və düşüncələrini daha yaxşı ifadə etməyə imkan verir. Bu da gələcəkdə azad

fikirli cəmiyyətin formalaşmasında mühüm rol oynayar. Gəncləri mütəmadi olaraq kitabxanaya yeni daxil olan kitablar barədə məlumatlandırmaq lazımdır. Bu məqsədlə müasir yazıçılarımızın kitablarından ibarət sərgilər təşkil etmək olar. Sərgidə N. Məmmədlinin “Bu bir oyundur”, “Zəngulə”, “Vicdan dustağı”, Elxan Elatlının “Pəncərədə görünən kölgə”, “Cəhənnəmdən gələn səs”, “Xəyanət”, “Bakıdan gələn xəfiyyə”, “Qan ləkəsi”, “İtmiş qızın axtarışı”, “ Yeddinci mərtəbədə qətl”, Pərvizin “Yad dildə”, Varisin “Sonuncu ölən ümidlər”, “Bir ovuc torpaq” “Görünməyən izlər”, Çingiz Abdullayevin “Onun qəlbinin üçdə bir hissəsi”, “Veneranın ikinci dəfə həyata gəlməsi”, “Kandaqordan agent”, “Paralel həyat” kitablarını nümayiş etdirmək olar. Kitabxanalarda gənclərimizi fəaliyyətdə olan gənclər təşkilatları haqqında məlumatlandırmaq lazımdır. Belə ki, hazırda ölkəmizdə 170-dən çox gənclər təşkilatı fəaliyyət göstərməkdədir. Bu təşkilatların fəaliyyətindən, gördükləri işlərdən gənc oxucuları xəbərdar etmək üçün həmin təşkilatların nümayəndələri ilə gəncləri görüşdürmək mümüköndür. Beləcə gənclər onları maraqlandıran suallara cavab tapa bilərlər.

Son dövrlərin yazıçılarını oxucularımıza sevdirmək məqsədilə onların əsərlərinin icmallarının keçirilməsi məqsədəuyğundur. İcmalını keçirə biləcəyiniz əsərlərdən biri son dövrlərin sevilən yazıçısı Elxan Elatlının “Görünməyən izlər” kitabıdır. Yazıçı əsərlərini detektiv üslubda yazır. Əsərin əsas qəhrəmanı Qambay Qasımlıdır. Romanda Humayla onun tanışlığından bəhs edilir. Əsərdə bu günümüzün gəncliyi üçün olduqca əhəmiyyətlidir. Belə ki, yazıçı əsərdə narkotikin insan həyatını necə məhv etdiyini olduqca aydın şəkildə əks etdirir. Elə bu səbəbdən də əsər gənclərimiz üçün əhəmiyyətə malikdir. Kitab 2010-cu ildə Bakıda “İdeal-print” nəşriyyatında çap olunmuş və oxucuların ixtiyarına verilmişdir. Müasir dövr Azərbaycan

ədəbiyyatının görkəmli nümayəndələrindən biri də Nüşabə Məmmədlidir. Yazıçının son nəşr olunan kitablarından biri “Vicdan dustağı” adlanır. Kitab 2010-cu ildə “Çinar-Çap” nəşriyyatı tərəfindən çap olunmuşdur. Kitabın icmalının təşkili gənc oxucularda ona qarşı maraq yaradır. Roman onu oxuyan hər bir gənci öz həyatını, atacağı addımları bir daha düşünməyə vadar edir. Belə ki, tərbiyəvi mövzuda yazılan əsər müasir gəncliyimiz üçün olduqca əhəmiyyətlidir. Əsər gənclərə bir sıra insani keyfiyyətləri aşılamaq cəhətdən olduqca əhəmiyyətlidir. Romanın əsas qəhrəmanı Səltənətdir. Onun həyatında baş verən çətinliklər gənclər üçün təhsilin nə qədər vacib olduğunu bir daha sübut edir. Yazıçı romanda erməni millətinə xas murdar xüsusiyyətləri böyük məharətlə təsvir etmişdir. Roman gənclərimizi mübariz olmağa, vətəni, ailəni sevməyə, təhsil almağa səsləyir. Əsər gənclərimiz üçün böyük tərbiyəvi əhəmiyyətə malikdir.

Gənclərin fikir və düşüncələrini öyrənmək üçün onlar arasında müsahibənin keçirilməsi məqsədəuyğundur. Onu da deyək ki, müsahibə oxucuları öyrənməyin ən yaxşı üsullarındandır. Müsahibənin ali təhsil və orta ixtisas məktəb kitabxanalarına müraciət edən tələbələr arasında keçirmək daha yaxşı olar. Müsahibə zamanı təqdim olunacaq sualları sizə təqdim edirik:

1. Özünüzü təqdim edin. Harada təhsil alırsınız?

2. Tez-tezmi kitabxanalara müraciət edirsiniz?

3. Hansı janrda olan ədəbiyyata daha çox üstünlük verirsiniz?

4. Ən son hansı kitabı oxumusunuz?

5. Sizcə Azərbaycanda gənclər azmı mütaliə edir?

6. Özünüzü hazırki cəmiyyətdə hansı mövqedə görürsünüz?

7. Bəs gələcəkdə hansı mövqedə olmaq istərdiniz?

8. Sizcə gələcəkdə öz ixtisasınız üzrə mütəxəssis ola biləcəksinizmi?

9. Siz gənc olmağın üstünlüyünü nədə görürsünüz?

10. Sizcə təhsil gənclərimiz üçün nə dərəcədə önəmlidir?

11. Sizcə Azərbaycan gəncliyi nəyə qadirdir?

12. Azərbaycan gənclərinə nə tövsiyə edərdiniz?

13. Azərbaycanımızı necə görmək istərdiniz?

14. Asudə vaxtlarınızı necə keçirirsiniz?

15. Ən çox sevdiyiniz məşğuliyyət nədir?

16. Sizcə bizim gənclərin əsas problemləri nədən ibarətdir?

Maraqlı tədbirlərdən biri ədəbi-bədii gecədir. Əvvəlcə tədbir iştirakçılarına "Gənclər gələcəyimizin qurucularıdır" adlı slayd təqdim olunur.

*Səhnədəki plakatda ümummilli liderimiz Heydər Əliyevin respublika gənclərinin II forumundakı nitqindən olan sözləri əksini tapır. Tədbir ekranda ulu öndərimiz Heydər Əliyevin çıxışının nümayişi ilə başlanır.*

Heydər Əliyev: "Əziz gənclər! Bu gün ölkəmizdə bayram günüdür, Gənclər Günüdür. Bu bayram münasibətilə sizi, Azərbaycanın bütün gənclərini səmimi qəlbdən təbrik edirəm. Sizə can sağlığı, xoşbəxt həyat, təhsilinizdə, gələcək işlərinizdə, bütün həyatınızda uğurlar arzulayıram. Bu dövrü, bu günləri yaşamaq bizlərə, sizlərə nəsib olubdur. Həm XX əsrdə yaşayıb-yaradaraq onu başa vurmaq, həm də XXI əsrə keçib bunu davam etdirmək nəsib olubdur. Azərbaycan gəncləri

toplanmış bütün təcrübədən səmərəli istifadə edərək, doğma, müstəqil Azərbaycan üçün yeni uğurlar, nailiyyətlər gətirəcəklər. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə tapşıracağıq. Ona görə də Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək, tanıtmaq üçün hazır olun”.

*Sonra söz aparıcalara verilir.*

**I aparıcı:** Hamınızı xoş gördük, gənclərimiz və hörmətli qonaqlar! Əziz gənclər, ulu öndərimizin çıxışında eşitdiyiniz kimi bugünkü tədbirimiz məhz sizə həsr olunmuşdur. Ümummilli liderimizin də hər dəfə çıxışlarında qeyd etdiyi kimi Azərbaycan gəncliyi müstəqil respublikamız üçün böyük nailiyyətlər qazanmaq iqtidarına malikdir. Bəs bu məqsədlərə çatmaq üçün biz gənclər nə etməliyik?

**II aparıcı:** Bildiyimiz kimi inkişafa gedən yol ilk növbədə təhsildən keçir. Elə bu səbəbdən də hamınız təhsilinizə, savadınızı artırmağa xüsusi diqqətlə yanaşmalısınız. Dostlar, çalışın daima intellektual səviyyənizi, savadınızı inkişaf etdirin. Çünki vətənimizə layiqli bir vətəndaş kimi yetişmək üçün təhsil önəmli şərtlərdən biridir. Konstitutiyamızın da 42-ci maddəsində göstərildiyi kimi hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Dövlətimiz isə hər bir gəncin təhsil almaq hüququnu təmin edir. Bu imkanlardan yararlanın, əziz gənclər!

**I aparıcı:** Dostlar, unutmayın ki, siz artıq cəmiyyətin yetkin üzvüsünüz. Hər addımı atmazdan öncə hərtərəfli düşünün, ziyanlı vərdişlərdən uzaq olmağa çalışın. Heç bilirsinizmi ki, bu kimi vərdişlər insanın gələcək həyatında necə dərin yaralar aça bilər? Elə bu səbəbdən də papiros çəkmək, içki içmək, narkotikdən istifadə etmək kimi pis vərdişlərdən uzaq olun.

Buna nail olmaq üçünsə ilk növbədə ətrafınıza yaxşı dostlar toplayın.

**II aparıcı:** Unutmayın ki, dostluq bütün hisslərin, bütün münasibətlərin ən ülvisi, ən əvəzolunmazı və ən önəmlisidir. Dostluq olmadan sevgi olmaz, dostluq olmadan heç bir münasibət baş tutmaz, dostluq olmadan inam, dəyər və səmimiyyət olmaz. Atalarımız əbəs yerə deməyiblər ki, “Dostunu mənə göstər sənə kim olduğunu deyim”. Odur ki, özünüzə yaxşı dostlar qazanın və özünüz də yaxşı dost olmağa çalışın! Gəlin unutmayaq ki, dostluq təkcə insanların şəxsi münasibəti olmaqla qalmır, bu zamanla cəmiyyətdə münasibətlərin yaxşılaşmasına, qonşu dövlətlərlə əlaqələrin möhkəmləndirilməsinə gətirib çıxarır.

*Oxucu Elmir Gəncəlinin “Dostluq” şeirini söyləyir.*

Bir gecə qələmi əlimə aldım
Düşündüm dostluqda səhv etmişəm mən?
İlk öncə yadıma mən səni saldım
Gördüm xoş xatirələri məhv etmişəm mən!
Yadımda qalmısan pis fikirlərlə
Hər zaman dostuna demisən yalan
Dar gündə sən məni vermisən ələ
Əsl dost dostuna can verər qurban
Heç kimə dost sözün demirəm indi
O qədər yalançı dostlar görmüşəm
Dost dedim çevrildim bir də gördüm ki,
Artıq üzü üstə yerə düşmüşəm...

**I aparıcı:** Unutmayaq ki, vətənimizi yadellilərdən qorumaq kimi mühüm bir vəzifə də biz gənclərin üzərinə düşür. Belə ki, hər bir oğlan hərbi xidmətini yerinə yetirməklə vətən qarşısında

öz borcunu yerinə yetirməlidir. Vətənə məhəbbət, anaya, xalqa, ailəyə olan məhəbbət deməkdir.

*Oxucu Mirvarid Dilbazinin "Vətən oğulsuz olmasın" şeirini söyləyir.*

İgid oğul istəyir
Vətən hər dar günündə
Şücaətlə dayansın
Mərdim düşmən önündə
İgid oğul, ər oğul
Vətənin şöhrətidir
Tədbirli rəhbər oğul
Xalqın səadətidir.
Gül üstə gül bitirir
Övladın fərliləri
Vətən tarixi olur
Elin hünərliləri.
Sizə uğurlu yollar
Şücaətli oğullar
Vətənin qartalları!
Qədirbilən xalqımız
Bəzəyərək güllərlə
Keçdiyimiz bu çətin,
Bu əzablı yolları!

*Gənclərin ifasında Cavanşir Quliyevin "Əsgər marşı" mahnısı səslənir və səhnədə Azərbaycan bayrağı dalğalanır.*

**II aparıcı:** İndi isə hamınızı gənc oxucularımızın hazırladığı səhnəciyə baxmağa dəvət edirik.

*Tələbələr səhnəyə çıxır. Onlar aralarında söhbət edirlər.*

**I tələbə:** Ay uşaqlar, deyirəm həyatımız elə bil ki, kinolara bənzəyir. Necə düşünürsünüz? Gəlin bu barədə öz fikirlərimizi

deyək. İlk əvvəl mən başlayıram: Tələbənin ilk günü – “Uşaqlığın son gecəsi” dir. Birinci kurs – “İnsan məskən salır”.

**II tələbə:** İkinci kurs – “Geriyə yol yoxdur”, müəllim və patoq – “Əlibaba və qırx quldur”.

**I tələbə:** Tələbə lövhə qarşısında – “Sən niyə susursan?”, asanlıqla yaxşı qiymət yazan müəllim – “Onun böyük ürəyi”.

**III tələbə:** Başdan sovdu dərs – “Gün keçdi”, axırıncı dərs – “Atları yəhərləyin”.

**I tələbə:** Tələbə imtahanda – “Canlı meyit”, tələbə seminarda – “Bülbül qəfəsdə”.

**III tələbə:** Tələbə yataqxanada – “Qərib cinlər diyarında”.

**II tələbə:** Dərsdən qaçan tələbə – “Əhməd haradadır?”, dekan dəhlizdə – “Mixaylo şəhərdə”.

**IV tələbə:** Payıza qalan tələbə – “Onu bağışlamaq olarmı?”

**II tələbə:** Konspektsiz tələbə – “Başsız atlı”, bufet – “Şərikli çörək”.

**I tələbə:** Semestr imtahanı – “İstintaq davam edir”.

**III tələbə:** Dövlət imtahanı – “Axırıncı aşırım”, diplom müdafiəsi – “Dağlarda döyüş”.

**I tələbə:** Uşaqlar, imtahan demişkən, deyirəm nə yaxşı oldu ki, imtahanları verib qurtardıq.

**II tələbə:** Amma mən axırıncı imtahandan kəsildim. Bütün suallara cavab vermişdim. Bir sualdan başqa. Tələbələr: O hansı sualdır?

**II tələbə:** Müəllim soruşdu ki, Rusiya – Yaponiya müharibəsi hansı ölkələr arasında baş vermişdir? Mən də o mövzunu oxumamışdım.

**I tələbə:** Hə çətin sualdır. Heç mən də bilmədim. Eybi yox gedək kitabdan taparsan.

*Tələbələr səhnəni tərk edirlər, söz müdiriyyətə verilir.*

**Müdiriyyətin çıxışı:** Gənclər tarixin bütün dövrlərində inkişafın hərəkətverici qüvvəsi olub. Onların gücündən səmərəli istifadə olunanda ölkə də tərəqqi edir, insanların həyata baxışı da təzələnir, dövlət idarəçiliyinin, iqtisadiyyatın mədəniyyətin inkişafına rəvac verən mühüm işlər görülür. Ümummilli lider Heydər Əliyevin uzaqgörənliklə formalaşdırdığı gənclər siyasəti bu gün yeni mərhələyə qədəm qoymuşdur. Ulu öndər müasir düşüncəli, savadlı, dünyagörüşlü gənclik yaratmağa çalışırdı və bütün bunlara nail olmaq üçün onları müxtəlif ölkələrə təhsil almağa göndərirdi. Ulu öndər Heydər Əliyevin gənclərlə bağlı imzaladığı bir çox sənədlər isə respublikanın ictimai-siyasi həyatında gənclərin daha da fəal iştirakı üçün şərait yaratmışdır. Vətənimizin inkişafı üçün bu gün önəmli postlarda çalışan gənclər bu siyasətin nəticəsidir. Bəli, artıq bu gün Heydər Əliyevin arzuladığı gənclik yetişib. İndi onların məqsədli şəkildə irəlilədiyi bir yol var. Müasir gənclərimiz həm öz, həm də ümumilikdə Azərbaycanımızın gələcəyi üçün daim təşkilati-hüquqi çalışmalıdır. Çox sevindirici haldır ki, Azərbaycanda müasir gənclər hərəkatının inkişafı üçün dövlət səviyyəsində kifayət qədər işlər görülmüş, uşaq və gənclərin qeyri-hökumət təşkilatlarının yaradılması, fəaliyyətlərinin təşkili üçün sağlam mühit yaradılmış və hüquqi baza təkmilləşdirilmişdir. Bu gün Azərbaycan gəncliyi öz həyat və yaradıcılığını xalqına, Vətəninə və dövlətinə həsr etməyə hazırdır. Gəlin vətənimizi göz bəbəyimiz kimi qoruyub onun keşiyində duraq, Azərbaycanımızı gündən-günə inkişaf etdirək.

## Ədəbiyyat siyahısı

**Atakişiyev R.** Gənc sahibkarın yaddaş kitabçası. - Bakı : Elm və Təhsil, 2013. - 140 s. : foto, rəngli foto, cədv.

**Azərbaycan Uşaq və** Gənclərin Sülh Şəbəkəsi : fotoalbom. - Bakı : Təhsil Nəşriyyat-Poliqrafiya MMC, 2011.

**Azərbaycan Uşaq və** Gənclərin Sülh şəbəkəsi -10 il. - Bakı : Oğuz evi, 2010.

**Bünyadzadə K.** Gəncliyin fəlsəfəsi. - Bakı : Nurlar, 2009. - 256 s.

**Cəfərov H.** Azərbaycanda gənclər hərəkatı (XX əsr) : monoqrafiya. - Bakı : Nurlan, 2009. - 458 s.

**Dönər Ə.** Yeniyetməlik dövrünün yol xəritəsi : mənəviyyat hekayələri - Bakı : Xəzər, 2009. - 143 s. : rəngli il.

**Gənc istedad-2012** : İstedadlı və yaradıcı Gənclərin II Respublika toplantısı. Kataloq. - Bakı : [s. n.], 2012. - 104 s. : rəngli foto.

**"Gənclər - İnnovasiyalar** - Kitabxanalar" Azərbaycan -Rusiya elmi-praktiki konfransın materialları = Молодежь - Инновации-Библиотеки материалы Азербайджанского - российской научно-практической конференции. - Bakı : Renessans, 2016. - 256 s. : rəngli foto. - Azərbaycan və rus dillərində.

**Hacıyev R.** Azərbaycan gəncliyinin himayədarı : Heydər Əliyevin gənclər siyasəti (1993-2003-cü illər. - Bakı : Aspoliqraf, 2014. - 192 s. : rəngli foto.

**Kazımov N.** Tarixin canlı səhifələri [Elektron resurs] : II Gənclər festivalı. - Bakı : [s. n.], 2016. - 1 el. opt. disk (DVD-ROM) ; 12 sm.

**Psixoaktiv maddələr istifadə** edən şəxslərin müəyyən edilməsinə kömək məqsədilə təhsil, gənclər və idman təşkilatlarının əməkdaşları üçün metodik tövsiyələr. - Bakı : Time Print, 2014. - 48 s.

**Dövri mətbuatda**

**Abdullayev A.** Yeni strategiya, yeni hədəflər (2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası) // Təhsil problemləri. - 2015. - 01-07 iyul. - № 49/50. - S. 12.

**Abdullayev T.** Gələcəyin etibarlı təminatı bilikli və bacarıqlı gənclərdən asılıdır // Səs. - 2016. - 24 fevral. - № 35. - S. 13.

**Aslanov E.** Uşaq və gənclərin fiziki və mənəvi inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindəndir // Səs. - 2017. - 21 fevral. - № 32. - S. 10.

**Azadə G.** Təhsil pillələri ilə yüksələcək peşə sahibləri : Mütəxəssislər deyir ki, təkliflər hazırlanarkən gənclərin maraqları nəzərə alınıb // Kaspi. - 2017. - 17 noyabr. - № 194. - S. 6.

**Azəri N.** Azərbaycanda milli dəyərlərə bağlı gənclər ordusu formalaşıb : Ölkəmizdə gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvər ruhda böyüməsi üçün dövlət tərəfindən mühüm addımlar atılır // Yeni Azərbaycan. - 2016. - 25 fevral. - № 36. - S. 7.

**Bayramova Z.** İlham Əliyev : "Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində mən görürəm ki, bu gün böyüyən gənclər xalqa, dövlətə bağlıdırlar" : 2 Fevral Ümumrespublika Gənclər Günüdür // Səs. - 2016. - 2 fevral. - № 19. - S. 8-9.

**Bədəlov Ə.** Prezident İlham Əliyev: Gənclər gərək milli ruhda tərbiyə alsınlar // Xalq qəzeti. - 2017. - 20 avqust. - № 181. - S. 7.

**Cəfərli S.** Sülhə məhəbbət. müharibəyə nifrət : Gənclər vətənpərvərlik ruhda tərbiyyə olunurlar // Azərbaycan Müəllimi. - 2017. - 4 avqust. - № 29. - S. 6.

**Cəfərova S.** Milli mənlik şüurunun inkişafında gənclərin rolu əhəmiyyətlidir // Səs. - 2017. - 6 iyul. - № 117. - S. 13.

**Eyyubova G.** Heydər Əliyev və gənclər siyasəti // İki sahil. - 2017. - 12 dekabr. - № 227. - S. 23.

**Ələddinqızı N.** 2 fevral Ümumrespublika Gənclər Günüdür // Səs. - 2017. - 2 fevral. - № 19. - S. 7.

**Ələddinqızı N.** Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. : Dövlət başçısının Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fonduna 3 (üç) milyon manat ayrılıb // Səs. - 2017. - 21 aprel. - № 69. - S. 10.

**Ələddinqızı N.** Bu gün Beynəlxalq Gənclər Günüdür // Səs. - 2016. - 12 avqust. - № 145. - S. 6.

**Ələsgərova İ.** Gəncliyin inkişafı Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsidir : 2 fevral Gənclər Günüdür // Xalq qəzeti. - 2017. - 2 fevral. - № 23. - S. 3.

**Əliqızı Z.** Uşaq və gənclərin fiziki və mənəvi inkişafı : tərbiyədə nəzarətlə qadağa qarışdırılmamalıdır // Kaspi. - 2017. - 28 fevral. - № 37. - S. 10.

**Əliyev S.** Avropalılar Gəncəni daha yaxından tanıyacaqlar : Gəncə 2016-cı il Avropa Gənclər Paytaxtı // Azərbaycan. - 2016. - 5 may. - № 96. - S. 6.

**Əliyeva İ.** Gənclər dövlətin hərtərəfli qayğısı ilə əhatə olunublar : 12 avqust Beynəlxalq Gənclər Günüdür // Azərbaycan. - 2016. - 12 avqust. - № 174. - S. 5.

**Fərəcova Z.** Dövlətimiz gənclərin hərtərəfli inkişafına şərait yaradıb //Azərbaycan. - 2017. - 12 avqust. - № 174. - S. 2.

**Gəncə "Avropa Gənclər** Paytaxtı" adını layiqincə doğruldacaq : "Gəncə-2016-cı il Avropa Gənclər paytaxtı" layihəsinin rəsmi açılış mərasimi olub // Respublika. - 2016. - 5 may. - № 96. - S. 3.

**Gəncə şəhərinin "2016-cı** il Avropa gənclər paytaxtı" seçilməsi ilə əlaqədər tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (24 fevral 2016-cı il) // Azərbaycan. - 2016. - 25 fevral. - № 43. - S. 1.

**Gəncəli N.** Gəncənin Avropa gənclər paytaxtı seçilməsi Azərbaycan gənclərinin uğurudur // Palitra. - 2016. - 5 may. - № 79. - S. 4.

**Gənclər Təşkilatları Milli** Şurasının 20 illik yubileyi qeyd olunub // Azərbaycan. - 2015. - 26 noyabr. - № 260. - S. 5.

**Gülyanə.** Azərbaycan gəncliyi bilik və bacarığı ilə seçilən gənclikdir : 2 Fevral Gənclər Günüdür // Səs. - 2016. - 3 fevral. - **№ 20**. - S. 13.

**Xəlilov Z.** Gəncə artıq Avropanın Gənclər paytaxtıdır // Respublika. - 2016. - 6 mart. - **№ 52**. - S. 5.

**İbadov E.** Gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib : 2 fevral Gənclər Günüdür // Azərbaycan. - 2015. - 1 fevral. - № 24. - S. 4.

**İbrahimov Z.** Bilikli, bacarıqlı gənclər yetişdirmək əsas vəzifəmizdir // Respublika. - 2017. - 5 oktyabr. - № 216. - S. 7.

**"2015-2025-ci illərdə Azərbaycan** gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (26 yanvar 2015-ci il) // Azərbaycan. - 2015. - 27 yanvar. - № 19. - S. 1.

**Qasımov H.** Gəncə ona görə Avropanın Gənclər Paytaxtıdır ki // Xalq qəzeti. - 2016. - 19 aprel. - № 82. - S. 6.

**Qasımov H.** Gəncə Avropa gənclərini 2016-cı ilin paytaxtı adına layiq qarşıladı // Xalq qəzeti. - 2016. - 5 may. - № 96. - S. 5.

**Qələndərli N.** 12 avqust Beynəlxalq Gənclər Günüdür : Azərbaycanda gəncliyin inkişafı daim dövlətin diqqət mərkəzindədir // Yeni Azərbaycan. - 2016. - 12 avqust. - № 145. - S. 6.

**Lalə.** Gənclər mədəni mübadilənin aparıcı qüvvəsidir : BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində Gənclər Forumu keçirilib // Mədəniyyət. - 2016. - 27 aprel. - № 32. - S. 8.

**Mirzəbəyli İ.** Gənclər siyasəti Azərbaycan dövlətinin fəaliyyətində prioritet istiqamətlərdəndir : 2 Fevral - Gənclər Günü // Xalq qəzeti. - 2015. - 1 fevral. - № 24. - S. 1.

**Nərimanoğlu M.** Yay məktəbləri : Məqsəd intelektual gənclərin formalaşdırılmasıdır // Azərbaycan. - 2017. - 3 avqust. - № 166. - S. 5.

**Rasimoğlu C.** Gənc nəslin vətənpərvərlik tərbiyəsi dövlət-gənclər siyasətinin əsas istiqamətlərindəndir // Səs. - 2015. - 8 dekabr. - № 229. - S. 13.

**Rasimoğlu C.** Gənc nəslin vətənpərvərlik tərbiyəsi dövlət-gənclər siyasətinin əsas istiqamətlərindəndir // Səs. - 2016. - 29 aprel. - № 76. - S. 14.

**Respublika Uşaq-Gənclər İnkişaf** Mərkəzi yaradılıb // Azərbaycan Müəllimi. - 2016. - 12 noyabr. - № 44. - S. 1.

**Rəcəbova M.** Ulu Öndər Heydər Əliyev dövlət təhlükəsizliyi sistemindəki zəngin peşəkarlıq irsinin öyrənilməsinə gənclərin böyük marağı var : Dünən Bakıda "Heydər Əliyev - dövlət təhlükəsizlik orqanlarının ilk Azərbaycanlı generalı" mövzusunda keçirilən Ümumrespublika konfransı bunu bir daha təsdiqlədi // Respublika. - 2017. - 4 may. - № 94. - S. 3.

**Sevinc.** Bilik iqtisadiyyatına keçiddə gənclərin rolu artırılacaq : 2017-2021-ci illər ərzində bu istiqamətdə konkret nəticələrin əldə olunması hədəflənib // Həftə içi. - 2017. - 19 sentyabr. - № 167. - S. 6.

**Sevinc.** Əlil gənclərin təhsil imkanları : Ekspertlərin fikrincə, bu kateqoriyadan olan insanların cəmiyyətə inteqrasiyası təhsildən başlayır // Həftə içi. - 2017. - 4 avqust. - № 137. - S. 3.

**Səfərova G.** Azərbaycan gəncliyinin etibarlı dayağı : Gənclər Fondunun yaradılmasından 5 il keçir // Xalq qəzeti. - 2016. - 17 dekabr. - № 280. - S. 5.

**Tağıyev T.** Gənclər Təşkilatları Milli Şurasının sıralarında 112 gənclər təşkilatı birləşib : Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası // Palitra. - 2015. - 26 noyabr. - № 218. - S. 6.

**Təhsil müəssisələrində uşaq** və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında 2017-ci il üçün fəaliyyət planı : Azərbaycan Respublikası Təhsil Nazirliyinin (08 fevral 2017-ci il tarixli, 87 №-li) və Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (01 fevral 2017-ci il tarixli, 12 №-li) birgə əmri ilə təsdiq edilib // Azərbaycan Müəllimi. - 2017. - 11 fevral. - № 5. - S. 6.

**Turan A.** Azərbaycan gəncliyi dövlətçilik maraqlarına böyük sədaqət bəsləyir : 2 fevral Gənclər Günüdür // Xalq qəzeti. - 2016. - 2 fevral. - № 23. - S. 5.

**Vahidoğlu O.** Gənclərimiz ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni uğurlara imza atırlar : 2 Fevral Gənclər Günüdür // İki sahil. - 2015. - 31 yanvar. - № 19. - S. 10.

**Vəlibəyov R.** Prezident İlham Əliyevdən Azərbaycan gəncliyinə növbəti mükafat : Dövlət başçısının "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında sərəncamı gənclərə qayğı və diqqətin keyfiyyətcə yeni mərhələyə daxil olduğunun təsdiqidir : 2 fevral Gənclər Günüdür // Azərbaycan. - 2015. - 1 fevral. - № 24. - S. 4.

**Yusifli R.** Dövlət gənclər siyasəti Azərbaycanda prioritet sahələrdən biridir // Respublika. - 2016. - 5 mart. - № 51. - S. 5.

**Gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır**

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 11
Çapa imzalanmışdır:
28.01.2021
Tirajı:100
Pulsuz